**ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu**
**Seçki Müşahidə Missiyası**
**Azərbaycan Respublikası**
**2013-cü il Prezident Seçkiləri**

# ARALIQ HESABATI No.2
**13-26 sentyabr 2013-cü il**

**1 oktyabr 2013**

## I. QISA İCMAL

- 9 oktyabr prezident seçkilərində 10 namizəd rəqabət aparacaq. Bunlardan səkkizinin namizədliyini siyasi partiyalar, birinin namizədliyini təşəbbüs qrupu və biri isə namizədliyini müstəqil olaraq özü irəli sürüb.
- Sentyabrın 13-ü Mərkəzi Seçki Komissiyası (MSK) namizədliyi irəli sürülmüş daha 3 şəxs barədə qərar qəbul etmişdir. MSK onlardan birinin namizədliyini qeydə almış, digər ikisinin isə namizədliyini yetərincə sayda etibarlı imza təqdim etmədiklərinə görə qeydə almamışdır. Namizədliyi qeydə alınmayan şəxslər MSK-nın imzaları yoxlayan ekspert qrupunun etibarsız imzalar üzrə tətbiq etdiyi yanaşmanı şübhə altına almışdırlar. Ümumi olaraq, MSK 5 nəfərin namizədliyini qeydə almamışdır.
- Rəsmən sentyabrın 16-sı başlayan seçki kampaniyasının ümumi olaraq sakit mühitdə davam etməsinə baxmayaraq, bəzi siyasi şəxslərin ailə üzvlərinin hədələnməsi halları ilə əlaqədar abu-havanın pisləşməsi baş vermişdir. Bü günə qədər aparılan kampaniyanın konkret siyasi platforma deyil, daha çox şəxsiyyətlər üzərində qurulması və əsaslı debatların çatışmaması ilə müşayiət olunur.
- Bu günə gədər ATƏT/DTİHB-nin Seçki Müşahidə Missiyası (SMM) 21 seçkiqabağı təşviqat mitinqini müşahidə edib. MSK seçkiqabağı təşviqat tədbirlərinin keçirilməsi üçün 152 qapalı və açıq məkan müəyyənləşdirib. Bu qanunun tələbi ilə edilsə belə, bəzi namizədlər həmin məkanları ictimai tədbirlərin keçirilməsi üçün qeyri-məqbul hesab edirlər.
- Qanunla müəyyən edilmiş müvafiq tarixlərə MSK əməl edir və 32.000 seçki rəsmisin təlimləndirməsi ilə bərabər seçki üçün aparılan texniki hazırlıq işi seçki administrasiyasının bütün səviyyələrində davam etdirilir. Seçicilər 5273 adi və 219 xüsusi, eləcə də ölkədən kənarda təşkil olunmuş 38 səsvermə məntəqəsində səs verə biləcəklər.
- Sentyabrın 14-nə qədər olan məlumata görə seçicilərin sayı 5,016,365 nəfər təşkil etmişdir ki, bu da may ayında edilən yenilənmədən sonra əlavə 30,000 seçicinin daxil olması deməkdir. MSK seçicilər siyahılarının dəqiqləşdirilməsi ilə əlaqədar onlayn və ya telefon vasitəsi ilə 4,000 sorğu qəbul və emal edib. MSK ATƏT/DTİHB-nin SMM-na verdiyi məlumata görə bu hesabat dövrünün son tarixinə gədər 4,400 qeydiyyatdançıxma vəsiqəsi seçicilərə təqdim olunmuşdur.
- MSK hər bir namizəd üçün radio və televiziyada hər həftə 6 saatlıq ödənişsiz efir vaxtı ayırmışdır. Namizədlərdən ikisi sözügedən dairmi masa formatı ilə əlaqədar etirazlarını bildirmişdirlər. Sentyabrın 19-u televiziyada yayımlanan namizədlərin dəyirmi masa formatlı debatından sonra MSK Demokratik Qüvvələrin Milli Şurası (DQMŞ) təşəbbüs qrupu tərəfindən namizədliyi irəli sürülərək qeydə alınmış prezidenliyə namizəd Cəmil Həsənlinin Azərbaycan Respublikası Konstitusiyasının 106-cı maddəsi ilə qorunan Azərbaycan Respblikasının Prezidentinin şərəf və ləyaqətini və eyni zamanda onun ailə

üzvlərinin şərəf və ləyaqətini alçaldan ifadələr istifadə etməsinə görə ona “ciddi” xəbərdarlıq etmişdir.

- Qanunvericikdə təsbit olunmuş məhdudlaşdırıcı tələblər və əlavə olaraq namizədlərin leyhinə və ya əleyhinə təşviqat materialların yayımlanmaması barədə MSK-nın çağırışı seçki kampaniyasının mediada ətraflı işıqlandırılması imkanlarını azaltmışdır. Seçkiqabağı təşviqat dövrü ərzində ATƏT/DTİHB-nin SMM tərəfindən aparılan mətbuatın monitorinqinin nəticələri göstərir ki, digər siyasi aktorlarla müqayisədə, hazırki Prezidentin fəaliyyəti televiziyaların xəbər proqramlarında daha çox işıqlandırılır.
- İndiyədək Bakı Apellyasiya Məhkəməsinə doqquz şikayət daxil olub. Namizədlərin qeydə alınması ilə bağlı edilən şikayətlər 22 günlük təşviqat müddətinin artıq geridə qalmış 11 günü ərzində hələ də Ali Məhkəmə tərəfindən baxılmaqdadır. Beləliklə də, namizədliyi qeydə alınmamış şəxsin iddiası məhkəmə tərəfindən təmin edilsə belə, o, seçki təşviqatı keçirmək üçün həddən az dərəcədə məhdud vaxta malikdir.

## II. NAMİZƏDLƏRİN QEYDƏ ALINMASI

Sentyabrın 13-ü Mərkəzi Seçki Komissiyası (MSK) daha 3 şəxsin namizədliyi haqqında öz qərarını vermişdir. Onlardan yalnız birinin namizədliyi qeydə alınmış, digər ikisinin isə namizədliyini yetərincə sayda etibarlı imza təqdim etmədiklərinə görə MSK tərəfindən qeydə alınmamışdır[1]. Bunlardan səkkiz şəxsin namizədliyi siyasi partiya, biri təşəbbüs qrupu tərəfindən və biri isə namizədliyini müstəqil olaraq özü irəli sürüb. Qanunun tələbinə uyğun olaraq namizədlərin son siyahısı sentyabrın 19-da *Azərbaycan* qəzetində dərc olunub.

Namizədlərin qeydə alınması barədə MSK tərəfindən verilən qərarlar namizədləyi irəli sürülən şəxslərin topladığı dəstək imzalarını, və təqdim etdikləri maliyyə hesabatları və mülkiyyət sənədlərini yoxlayan ekspert işçi qrupunun rəyinə əsasən verilib. MSK üzvünün rəhbərlik etdiyi bu qrupa xətşünaslıq üzrə ixtisaslaşmış mütəxəssislər və müvafiq dövlət orqanlarının nümayəndələri daxildir[2]. ATƏT/DTİHB-nin yoxlama prosesində iştirakı tam təmin olunmuşdur. Namizədlər və onların səlahiyyətli nümayəndələri bu prosesdə iştirak etmə hüququna malikdirlər. İşçi qrupu qanuna və MSK-nın təlimatlarına uyğun olaraq hər bir namizədin topladığı dəstək imzalarının etibarlılığının qiymətləndirilməsi və maliyyə sənədləri üzrə öz rəyini vermişdir. Ekspert qrupunun oxşar kimi görünən imzaları “ehtimal” qaydasında yararsız hesab etməsi ziddiyyətli məsələyə çevrilmiş və qeydiyyata alınmayan namizədlər tərəfindən məhkəmədə mübahisələndirilmişdir[3]. Bu günə qədər MSK-nin namizədlik və qeydiyyatdan imtina haqda verdiyi qərarlar üzrə Bakı Apellyasiya Məhkəməsi 5 şikayətə baxıb. *(bax. Şikayət və Müraciətlər).*

MSK-ya yazılı müraciət etməklə namizədlər seçkiyə 10 gün qalmış müddətə gədər namizədliklərini geri götürə bilərlər. Namizədliyin geri götürülməsinin maliyyə məsuliyyəti yaratmaması yalnız həmin namizədin ciddi xəstəlik nəticəsində qabliyyətsizliyi barədə məhkəmənin verdiyi qərar əsasında mümkündür. Əgər namizədliyin geri götürülməsi seçki

---

1 Sərdar Məmmədov (Azərbaycan Demokrat Partiyası) namizəd kimi qeydə alınıb. Əli Əliyev (Vətəndaş və İnkişaf Partiyası) və İlqar Məmmədov (müstəqil namizəd) qeydiyyata alınmayıb. MSK-nın qərarına görə Əli Əliyevin təqdim etdiyi 42,634 imzadan 32,200 yoxlanıb və onlardan 5,571-i etibarsız hesab olunub. İlqar Məmmədovun təqdim etdiyi 41,247 imzadan 9,950-i yoxlanıb və 4,982 imza etibarsız hesab olunub. Etibarlı imzaların sayı 40,000-dən az olduğu təqdirdə MSK imzaların yoxlamasını dayandırır.

2 Ədliyyə Nazirliyi, Vergilər Nazirliyi və Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti.

3 İmzaların yoxlanması prossesində xəttin təhlili zamanı imzalar başqa seçicilərin imzaları ilə müqayisə olunur. Qanuna görə MSK hansısa bir seçicidən imza atıb-atmamasını dəqiqləşdirməli deyil. Qeydiyyata alınmayan namizədlər MSK ekspert qrupunu imzaların “başqa imzaya bənzəmə” və ya “bir qrup şəxs tərəfindən imzalanmış” adı altında etibarsız etmələrindən narazı olduqlarını bildirmişdirlər.

bülletenləri çap edildikdən sonra baş verərsə, seçicilər və seçki rəsmiləri seçki komissiyalarının elan lövhələrində bu haqda yerləşdirilən məlumat vasitəsilə məlumatlandırılacaqlar; çap olunmuş seçki bülletenləri dəyişdirilməyəcək.

## III. SEÇKİQABAĞI TƏŞVİQAT VƏ ONUN MALİYYƏLƏŞDİRİLMƏSİ

Seçkiqabağı təşviqat rəsmi olaraq sentyabr ayının 16-da başlayıb. İndiyə qədər kampaniyanın ümumi olaraq sakit mühitdə davam etməsinə baxmayarq, bəzi siyasi şəxslərin ailə üzvlərinin hədələnməsi halları ilə əlaqədar abu-havanın pisləşməsi baş vermişdir[4]. Hakimiyyətdə olan Yeni Azərbaycan Partiyasının (YAP) başladığı seçkiqabağı təşviqat fəal, yaxşı təşkil olunmuş və maliyyə ilə təmin olunan bir kampaniya təsəvvürü yaradır. Hazırki Prezidentin seçkiqabağı təşviqatı daha çox regional sabitlik, iqtisadi inkişaf və Prezidentliyi dövründə əldə edilmiş digər nailiyyətlər üzərində qurulub. Prezidentin şəxsən seçki təşviqatı aparmamasına baxmayaraq, o, ölkə başçısı kimi ölkədaxili səfərlərini davam etdirməkdədir. ATƏT/DTİHB-nin SMM YAP mitinqlərində məcburi iştirakla bağlı 3 hal qeydə alıb[5].

Digər namizədlərin seçkiqabağı təşviqatı başlasa belə, daha zəif səviyyədə aparılmaqdadır. Bəzi namizədlər ATƏT/DTİHB-nin SMM-ə bildiriblər ki, maliyyə və insan resurslarının çatışmazlığından onlar geniş miqyaslı mitinqlər keçirmək əvəzinə seçicilərlə kiçik miqyaslı tədbirlərdə və qapı-qapı gəzərək görüşürlər. SMM-nin görüşdüyü şəxslərdən bəzilərinin dediklərinə görə onlar regionlarda yerli məmurların təzyiqi ucbatından özəl ofislərin və təşviqat üçün məkanların kirayə götürməsində çətinliklərlə üzləşiblər[6]. Namizədlərdən birinin təşviqat ofisinin SMM-ə verdiyi məlumata görə onların təşviqat fəaliyyətinə müəyyən maneələr törədildiyi ehtimal olunur[7].

Bü günə qədər aparılan kampaniyanın konkret siyasi platforma deyil, daha çox şəxsiyyətlər üzərində qurulması əsaslı debatların çatışmaması ilə müşayiət olunur. ATƏT/DTİHB SMM seçki ilə bağlı 21 əsas təşviqat tədbirinin müşahidəsini aparmışdır. Bu tədbirlərdən 17-si hazırda hakimiyyətdə olan prezidentin ölkənin müxtəlif yerlərində aparılan təbliğinə, 4-ü isə digər namizdələrin təbliğinə həsr olunmuşdur[8]. Mitinqlərdə namizədlər müəyyən dərəcədə sosial-iqtisadi, korrupsiya, Dağlıq Qarabağ münaqişəsi, bəzi namizədlər isə vətəndaş və siyasi hüquqların bərpası və prezident idarəetmə sisteminin ləğvi məsələlərini vurğulayıblar.

MSK seçkiqabağı təşviqatın aparılması üçün ayrılmış 152 açıq və qapalı yerlərin siyahısını dərc etmişdir. ATƏT/DTİHB SMM müşahidəsinə əsasən hakimiyyətdə olan Prezidentin seçkiqabağı təşviqat tədbirləri bəzi hallarda başqa yerlərdə keçirilmiş və ya fərqli yerlərdə keçirilməsi planlaşdırılmışdır. Bir neçə namizəd ATƏT/DTİHB SMM-ə ayrılmış yerlərdən bir çoxunun

---

4 Demokratik Qüvvələrin Milli Şurasının (DQMŞ) sentyabr ayının 22-də keçirdiyi mitinqdən sonra Xalq Cəbhəsi partiyasının lideri Əli Kərimlinin oğlu və mitinqdə çıxış edən natiqlərdən biri da daxil olmaqla üç nəfər həbs edilib. Onlara ilkin olaraq kampaniya materialların qəsdən cırmaq ittihamı irəli sürülüb, daha sonra isə ittiham dəyişdirilərək polisə müqavimətlə əvəz olunub. Sentyabrın 23-də DQMŞ-nın namizədi Cəmil Həsənlinin sözçüsünün 16 yaşlı oğlu naməlum şəxslər tərəfindən döyülmüş və bıçaqlanmışdır. Polis bu hadisəni araşdırır.

5 ATƏT/DTİHB SMM-nin sentyabrın 20-i və 23-də Yeni Azərbaycan Partiyasının (YAP) Qax və Şamaxıda keçirilən mitinqini müşahidə edərkən iştirakçıların mitinqin bitməsindən əvvəl ərazini tərk etmələrinə icazə verilmədiyinin şahidi olublar. Bundan başqa, sentyabrın 25-ində YAP-ın Mingəçevirdə təşkil etdiyi kütləvi tədbirdə iştirak edən tələbələr ATƏT/DTİHB SMM-ə müəllimlərin onlara mitinqə getməyi və sona qədər tərk etməməyi tapşırdıqlarını deyiblər.

6 Mingəçevirdə Müsavat və Azərbaycan Xalq Cəbhəsi partiyaları (AXCP), Naxçıvan Muxtar Respublikasında Müsavat, AXCP və Ümid partiyaları.

7 Ümid Partiyası iddia etmişdir ki, onların Ağstafada keçirdikləri mitinqə əhalini aparan nəqliyyata polis maneə törədib.

8 Ümid Partiyasından namizəd olan İqbal Ağazadənin bir mitinqi, cənab Həsənlinin (DQMŞ) Bakıdakı mitinqlərindən biri və cənab İsmayilovun (Ədalt Partiyası) Xaçmaz və Lənkəranda keçən 2 mitinqi.

ictimai görüşlər üçün qənaətbəxş olmadığını qeyd etmişdirlər. Namizədlərin hamısı sosial media da daxil olmaqla, seçicilərlə ünsiyyət qurmaq üçün internetdən istifadə edirlər.

MSK-dan təsdiq ediblər ki, bütün namizədlər imzatoplama prosesinə başlamazdan əvvəl seçkiqabağı təşviqatın maliyyələşdirilməsi üçün bank hesabının açılması ilə bağlı öhdəliyi yerinə yetiriblər. Namizədlərdən aralıq hesabatı seçki gününə 20 gündən 10 günə gədər qalmış müddət ərzində təqdim etmələri tələb olunur. Seçkiqabağı təşviqat üçün edilmiş ianə və xərclər barədə namizədlərin təqdim etdikləri hesabatlar ictimaiyyət üçün açıqlanmır. Namizədin seçkiqabağı təşviqata xərclədiyi vəsait 10,000 Azərbaycan manatından çox olduğu təqdirdə, MSK bu xərclər üzrə məlumatı açıqlamağa borcludur. MSK-dan habelə, 5,000 manatdan çox ianə etmiş hər bir hüquqi şəxsin və 250 manatdan çox ianə etmiş hər bir fiziki şəxsin adını dərc etmək tələb olunur[9]. Lakin, bu günə qədər, MSK bununla bağlı heç bir məlumat dərc etməyib. Bütün ianələr seçkiqabağı təşviqatla bağlı namizədin bankda açılmış hesabına köçürülməli və fiziki şəxslər ianə edərkən şəxsi məlumatlarını təqdim etməlidirlər.

## IV. SEÇKİ ADMİNİSTRASİYASI

Seçkiyə texniki hazırlıq seçki administrasiyasına aid olan bütün təşkilatlarda aparılır və MSK qanunla müəyyən edilmiş müddətlərə əməl edir. MSK seçki bülleteninin dizaynını təsdiqləyib və çap olunacaq bülletenlərin sayının qanuna uyğun olaraq seçici sayından üç faiz artıq, 5,149,255 nüsxə olacağını müəyyənləşdirib[10].

Seçicilər 5,273 adi və 219 xüsusi seçki məntəqəsi kateqoriyasına daxil olan hərbi hissə, həbsxana, xəstəxana və dənizdəki neft platformalarında təşkil olunmuş məntəqələrdə səs verəcəklər. 38 seçki məntəqəsi isə ölkədən kənarda, diplomatik nümayəndəlik və konsulluqlarda təşkil edilib. Beş təşkilat səsvermə günü ayrı ayrılıqda "exit-poll" keçirmək üçün MSK-ya müraciət edib [11]. Bü günə gədər onlardan yalnız biri qeydiyyata alınmış, digərinə isə qeydiyyatdan imtina edilmişdir.

Altı namizəd MSK-ya məşvərətçi səs hüquqlu nümayəndə təyin etmək hüququndan istifadə edib. MSK müşahidəçilər üçün də açıq olan iclaslarını keçirməkdə davam edir. MSK müşahidəçilər üçün acıq olan mütəmadi iclaslarını keçirməkdədir. ATƏT/DTİHB-in əvvəlki tövsiyyələrinə uyğun olaraq, MSK xüsusi təlim materialları hazırlamış və Ədliyyə Nazirliyinin həbsxanalarda səsverməyə məsul olan, Xarici İşlər Nazirlyinin ölkədən kənarda səsverməyə məsul olan, Daxili İşlər Nazirliyinin seçki günü təhlükəsiziliyin təminatına cavabdeh olan işçilərinə və Ombudsman Aparatının əməkdaşlarına təlim keçmişdir. Seçki məntəqə komissiyasının 32.000 üzvünə seçki gününün prosedurları ilə bağlı təlim keçmək məqsədilə MSK 250 təlimçiyə təlim keçmiş və təlim materialları çap etmişdir.

Hesabat dövründə ATƏT/DTİHB SMM 125 dairə seçki komissiyasının hamısına baş çəkmiş və onlar tərəfindən tam əməkdaşlıq yönümlü münasibətlə üzləşmişdir. Onların iclasları daha çox əməliyyat ehtiyaclarına əsasən keçirilir. Şikayətlərə baxılması üçün ekspert qrupu təyin olunsa da, ATƏT/DTİHB SMM-in baş çəkdiyi dairə seçki komissiyalarının heç birinə hələlik şikayət

---

9 1 avronun rəsmi məzənnəsi 1.04 Azərbaycan manatıdır.

10 Bu may ayının 29-na qədər olan qeydiyyata alınmış seçicilərin siyahısına əsaslanır, hansında ki, MSK-nın məlumataına görə seçici sayı 4,986,269 nəfər olub.

11 2013-cü ilin iyunun 5-də MSK “exit-poll” keçirməyi planlaşdıran təşkilatların akkreditasiya qaydalarının təlimatını qəbul edib. Hüquq və İnkişaf İctimai Birliyi bu təlimatla bağlı Bakı Apellyasiya məhkəməsinə şikayət edib. Birlik iddia edir ki, “exit-poll” üçün müraiət edən təşkilatlardan müvafiq təcrübə tələb etmək qanunla tənzimlənməli olam məhdudiyyətdir və MSK-nın səlahiyyələrinə aid deyil. Müraciətə oktyabrın 2-i baxılacaq.

daxil olmamışdır. Bir neçə halda müxalif partiyalarının yerli şöbələri seçki administrasiyanın bitərəf olmamasından narahatlıqlarını bildiriblər.

## V. SEÇİCİ QEYDİYYATI

Seçici siyahılarının yenilənməsi sentyabrın 14-də ümumi sayı 5,016,365 nəfər olan siyahı ilə başa çatdırılmışdır. May ayında edilən yenilənmədən sonra siyahıya əlavə 30,000 seçici daxil edilmişdir[12]. MSK ATƏT/DTİHB SMM-na bildirib ki, qanunla və MSK-nın təlimatlarına əsasən tələb olunmasa belə, bir çox hallarda məntəqə seçki komissiya üzvləri evləri qapı-qapı gəzib seçici siyahılarını dəqiqləşdirirlər. Müvafiq təlimat/tələb olmadığı halda, məntəqə seçki komissiya üzvlərinin bu dəqiqləşdirməni hansı qanun əsasında apardığı müəmmalı qalır.

MSK-nın ATƏT/DTİHB SMM-na verdiyi məlumata görə onlar seçici siyahısının yoxlanılması ilə bağlı onlayn və ya qaynar xətt vasitəsilə 4,000-ə qədər müraciət alıblar. İctimai yerlərdə məlumat plakatlarının və seçicilərin tanış olması üçün seçki məntəqələrində siyahıların asılması vasitəsilə vətəndaşların adlarını seçki siyahılarında yoxlamağa sövq etmə işi seçki administrasiyasının bütün səviyyələrində davam etdirilməkdədir.

Dövlət Statistika Komitəsinin ATƏT/DTİHB SMM-a verdiyi məlumata əsasən, 2013-cü il yanvarın 1-nə qədər olan məlumata görə ölkənin yaşı 18-dən yuxarı olan əhalisinin sayı təxminən 6,8 milyona bərabərdir. Əhalinin siyahıyaalınması və seçici siyahıları arasında arasında 1,8 milyon nəfər fərqin olmasını DSK məlumatların toplanması metodologiyasındakı müxtəlifliklə əsaslandırır. Belə ki, əhalinin siyahıyaalınmasında həm də xarici vətəndaşlar, işğal olunmuş torpaqlardakı əhali, xaricdə yaşayan və ölkəni ildə ən azı bir dəfə ziyarət edən vətəndaşlar da daxildir[13]. ATƏT/DTİHB SMM təmasda olan bəzi müsahiblər daxili miqrantların öz seçki hüquqlarından necə istifadə edəcəkləri ilə bağlı narahatlıqlarını ifadə ediblər.

Əksər Dairə Seçki Komissiyaları qeydiyyatdan çıxma vəsiqələrini son tarix olan 14 sentyabra qədər Məntəqə Seçki Komissiyalarına paylamışdırlar. Həmin tarixdən etibarən vətəndaşlar seçki günü başqa məntəqədə səs vermək üçün həmin vəsiqələri qeydiyyatda olduqları seçki məntəqələrindən əldə edə bilərlər. MSK 450,000-nə qədər qeydiyyatdan çıxma vəsiqəsi çap etmişdir ki, onlardan da 4,400-dən çoxu (MSK-nın sentyabrın 25-nə verdiyi məlumata əsasən) seçicilərə paylanıb. İstifadə olunmayanlar qeydiyyatdan çıxma vəsiqələri seçki günü səsvermə başlamamışdan əvvəl məhv edilməlidir.

## VI. MEDİA

Sentyabrın 16-sı, seçki kampaniyasının ilk günü, MSK namizədlər üçün televiziya (TV) və radioda həftəlik 6 saat ödənişsiz efir vaxtı ayırmışdır. Hər namizədin ictimai yayımçı olan *İctimai Televiziya və Radio Yayımları Şirkətində* (İTV) həftəlik 36 dəqiqə ödənişsiz efir vaxtından istifadə etmək haqqı var[14]. Seçki Məcəlləsinin 189.2-ci maddəsi ödənişsiz efir vaxtının müxtəlif formatlarda təşkilinə imkan versə də, MSK ödənişsiz efir vaxtının yalnız

---

12 ATƏT/DTİHB SMM MSK-dan bu rəqəmin açıqlanmasını, eyni zamanda nə qədər seçicinin çıxarıldığı və hansı sayda seçicinin əlavə olunduğu barədə məlumatı xahiş edib.

13 Dövlət Statistika Komitəsinin hesablamalarına görə Rusiya Federasiyası, Ukrayna, Türkiyə və başqa ölkələrdə yaşayan 1 milyondan artıq Azərbaycan vətəndaşı səs verməyən əhalidir; işğal olunmuş torpaqlarda 120,000 nəfər yaşayır və 240,000 əcnəbi vətəndaş isə Azərbaycanda məskunlaşıb.

14 Bir saatlıq dəyirmi masalar həftədə üç dəfə olmaqla İctimai radioda (21:00) və İctimai televiziyada (19:00) yayımlanır.

dəyirmi masa formatında təşkil olunması barədə qərar verib. Namizədlərdən ikisi dəyirmi masa formatına etirazlarını bildiriblər[15].

Sentyabrın 19-u İTV-də yayımlanan dəyirmi masa zamanı hazırki Prezident və onun ailə üzvlərinə məxsusluğu iddia olunan xaricdəki əmlak barəsində qızğın müzakirə getmişdir. Bu müzakirədən sonra Cəmil Həsənliyə (DQMŞ təşəbbüs qrupu) Prezident və ailəsinin şərəf və ləyaqətini alçatmaqla Konstitusiyanın 106-cı maddəsini pozması iddiası əsasında "ciddi" xəbərdarlıq edilmişdir (*bax. Şikayət və Müraciətlər*)[16]. Lakin diffamasiyaya görə cinayət müddəaları və dövlət vəzifəsi tutanlara diffamasiyadan xüsusi müdafiə verilməsi AİHM-nin presedent hüququna əsasən ifadə azadlığının əsassız məhdudlaşdırılmasıdır[17].

Bütün ölkə ərazisində yayımlanan kanallardan biri, İTV ödənişli siyasi reklamlar yayımlama niyyətini MSK-ya bildirmişdir. Lakin heç bir namizəd İTV-dən əlavə efir vaxtı almayıb. Televiziya kanalından ATƏT/DTİHB SMM-ə bildiriblər ki, ödənişli efir vaxtının ayrılması üçün müraciətin qanunla müəyyən olunmuş son tarixin 23 sentyabrda başa çatması səbəbindən namizəd olan Cəmil Həsənlinin siyasi reklam almaq üçün müraciətinə rədd cavabı verilib[18].

ATƏT/DTİHB SMM ilə görüşündə İTV rəhbərliyi qeyd edib ki, İTV-nin namizədlərin xeyrinə və ya əleyhinə kampaniya aparmasını açıq şəkildə qadağan edən hüquqi müddəalara uyğun olaraq gündəlik siyasi məsələlərin yer aldığı proqramlarda və müzakirə proqramlarında namizədlərin kampaniyasını işıqlandırmayacaq. İTV bildirib ki, xəbər proqramlarında namizədlərə obyektiv şəkildə yer ayıracaq, və bundan əlavə, xəbərlərin məzmununa uyğun olaraq hazırkı Prezidentin fəaliyyətindəki institusional (səlahiyyətlərinin birbaşa icrası ilə əlaqədar) tədbirləri işıqlandıracaq[19]. Namizədlərin leyhinə və ya əleyhinə kampaniya aparmamaq kimi qanuni öhdəliyin yalnız İTV-yə şamil olmasına baxmayaraq, MSK öz internet səhifəsi vasitəsilə mətbuata etdiyi müraciətində medianı namizədlərin leyhinə və ya əleyhinə, və yaxud bü səpkili hesab oluna bilən təşviqat məlumatların dərc və ya yayılmamasına çağırması bu qadağanın əhatəsini faktiki olaraq genişləndirmişdir. SMM ilə təmasda olan bəzi müsahiblər bu addımın mediada seçki kampaniyası üzrə şərh yönümlü məqalələrin dərc olunmasından çəkindirəcəyindən narahatlığını ifadə edib.

ATƏT/DTİHB SMM-in seçki təşviqatı müddətindən əvvəl və 2-15 sentyabr arasında apardığı media monitorinqinin nəticələri göstərir ki, digər siyasi aktorlarla müqayisədə, hazırkı

---

15 Ümid Partiyasının namizədi İqbal Ağazadə ATƏT/DTİHB SMM-na məlumat verib ki, o, ödənişsiz efir vaxtının formatı ilə bağlı narazılığını şifahi olaraq MSK-ya bildirib. Cəmil Həsənli (DQMŞ təşəbbüs qrupu) sentyabrın 18-də MSK-ya yazılı şəkildə müraciət edərək dəyirmi masa formatına etirazını bildirib və Seçki Məcəlləsinin 80.5-ci maddəsinə istinad edərək ödənişsiz efir vaxtının daha çox tamaşaçının izləyə biləcəyi vaxtda ayrılmasını istəyib. O, özünə məxsus gündəlik 6 dəqiqə ödənişsiz efir vaxtını istədiyi şəkildə istifadə etmək tələbini irəli sürüb. Sentyabrın 19-da MSK Həsənlinin bu müraciətini rədd edib. ATƏT/DTİHB SMM-in müraciəti əsasında İTV-nin verdiyi məlumatda qeyd olunur ki, televiziya auditoriyasının sentyabrın 17-də keçirilən dəyirmi masada izləyici payı 2.84%, sentyabrın 19-u isə 3.57% olmuşdur.

16 Qanunda "ciddi xəbərdarlıq" anlayışının nə özü, nə də ehtiva etdiyi məna mövcud deyil.

17 Azərbaycanın Dövlət Başçısının və ya Prezidentin şərəf və ləyaqəti Cinayət Məcəlləsinin 323-cü maddəsi və Konstitusiyanın 106-cı maddəsi ilə qorunur. Halbuki, Avropa Məhkəməsinin presedent hüququna görə, Dövlət Başçısının nüfuzunun qorunması onunla bağlı olan məlumat və rəyləri əldə etmə hüququna qarşı müdafiə və ya xüsusi imtiyazlara sahib olmağa əsas vermir. Bax. Lingens Avstriyaya qarşı. Ərizə No. 9815/82, 8 iyul 1986-cı ildə verilmiş qərar və digər işlər.

18 Seçki Məcəlləsinin 81.4 maddəsinə görə siyasi reklam üçün efir vaxtı rəsmi seçki təşviqatı başladığı gündən hesablanan bir həftə ərzində ayrılmalıdır. Cəmil Həsənli iddia edir ki, onun nümayəndəsi sentyabrın 23-ü İTV-yə daxil olmağa cəhd etsə belə, içəri buraxılmayıb və o, növbəti gün həmin kanala gələrkən ona bildiriblər ki, ödənişli efir vaxtının ayrılması üçün son tarix başa çatıb. Sentyabrın 25-də Cəmil Həsənli bu məsələ ilə bağlı MSK-ya şikayət göndərib. MSK bu şikayəti qəbul etməyib.

19 MSK-nın Mətbuat qrupundan ATƏT/DTİHB SMM-ə məlumat veriblər ki, onlar İTV-də gedən xəbər proqramlarında prezidentliyə namizədlərin bərabər işıqlandırılmasını monitorinq etməyəcəklər.

Prezidentin televiziyadakı xəbər proqramlarında işıqlandırılması qat-qat çoxdur[20]. Reportajların əhəmiyyətli hissəsi hazrıkı Prezidentin ictimai tədbirlərdə iştirakına və çıxışlarına həsr olunur.

Sentyabrın 17-sində bir jurnalist Cinayət Məcəlləsinin 206.3.2 və 228.2.1-ci, maddələri qanunsuz silah saxlama ittihamı ilə həbs olunub[21].

Sentyabrın 25-də MSK-nın Mətbuat qrupu üç media orqanını − Azadlıq Radiosu, BBC və Amerikanın Səsini - Seçki Məcəlləsinin xarici hüquqi şəxslərə seçki təşviqatında iştirak etməyi və təşviqat materiallarını yaymağı qadağan edən 74.4.1 maddəsininin tələblərini pozmağı dayandırmağa çağıran bəyanat yayıb. Mətbuat qrupunun müzakirələrində digər məsələlərlə yanaşı Azadlıq radiosunun DQMŞ-nın sentyabrın 22-də keçirilmiş aksiyasından canlı yayım aparması vurğulayıblar. Azadlıq radiosu ATƏT/DTİHB SMM-ə məlumat verib ki, onlar seçki kampaniyasını geniş və plüralistik şəkildə işıqlandırırlar və istinad edilən müddəanın ifadə azadlığını məhdudlaşdırdığını hesab edirlər, çünki seçki təşviqatının balanslaşdırılmış şəkildə işıqlandırılması seçki təşviqatı kimi dəyərləndirilməməlidir.

## VII. ŞİKAYƏT VƏ MÜRACİƏTLƏR

Müsbət təcrübə olaraq MSK və DSK-lar daxil olan şikayət və müraciətlərin qeydiyyatını aparır. Senytabrın 20-də MSK-ya ondan əvvəlki gün televiziyada yayımlanan dəyirmi masa vaxtı namizədlər arasında yaşanan insidentlə bağlı dörd şikayət daxil olub.[22] Şikayətlərə ekspert qrupu tərəfindən şikayətçilərin iştirakı olmadan baxılıb. Cəmil Həsənli bildirir ki, ona qanunda nəzərdə tutulmuş qaydada şikayətin baxılmasında iştirak etmək və əlavə sübutlar təqdim etmək imkanı verilməyib. Cənab Həsənli (DQMŞ) tələb edib ki, ona ekspert qrupunun müzakirəsində iştirak və əlavə dəlillər təqdim etmək üçün imkan verilsin. Sözügedən dörd şikayətin heç biri üzrə MSK şikayət subyekti olan tərəfi məlumatlandırmamış və onların mövqeyini öyrənməmişdir[23]. MSK Cəmil Həsənliyə "ciddi", Müasir Müsavat partiyasından olan namizəd Hafiz Hacıyevə isə adi xəbərdarlıq etmək qərarı vermişdir və bütün namizədləri təşviqat zamanı təhqir və ayrı-seçkiliyə yol verməməyə çağırmışdır. Senytabrın 24-də Cəmil Həsənli MSK-nın qərarından Bakı Apellyasiya Məhkəməsinə şikayət vermiş, lakin Apellyasiya məhkəməsi MSK-nın qərarırı qüvvədə saxlamışdır. Şikayətçi bu işlə əlaqədar növbəti instansiya - Ali Məhkəməyə hələki müraciət etməmişdir.

---

20 Monitorinqi aparılan televiziya kanallarında monitorinq müddətində rəsmi seçki təşviqatından əvvəl, ölkə üzrə bütün siyasi aktorları aid xəbər məzmununun 50%-i hazırki Prezidentə həsr edilib, o cümlədən, birbaşa onun çıxışlarını yayımlamağa 5 saatdan çox vaxt ayrılıb. Dövlətə məxsus AzTV və İctimai Kanal (İTV) Prezidentin işıqlandırılmasına müvafiq olaraq 62% və 28% vaxt ayırıblar. Prezidentliyə 10 namizədin işıqlandırılmasına təşviqat öncəsi sərf edilən vaxtın 98%-i hazırki Prezidentə, qalan 2%-i isə digər 9 namizədin payına düşüb.

21 Mətbuatda gedən ilkin məlumatlara görə müxalif yönümlü *Bizim Yol* qəzetində aparılan axtarışdan sonra Həşimlinin evində davam edən axtarış zamanı müxtəlif silahlar aşkarlarıb. Milli Təhlükəsizlik Nazirliyinin İnternet səhifəsində yerləşdirilən rəsmi bəyanata əsasən, silahlar Həşimlinin tanışının maşınında aşkarlanı və cənab Həşimli və onun tanışı qanunsuz silah saxlama və qaçaqmalçılıq ittihamı ilə həbs olunublar.

22 YAP tərəfindən iki şikayət verilib: birincisi Cəmil Həsənlinin (DQMŞ təşəbbüs qrupu) Konstitusiyanın 106-cı, Seçki Məcəlləsinin isə 88.1 maddəsini pozaraq Prezident və ailəsinin şərəf və ləyaqətini alçaltdığını, ikincisi isə cənab Həsənlinin ödənişsiz efir vaxtından sui-istifadə və başqa namizədlərin efir vaxtına müdaxilə etdiyini iddia edir. İTV də həmçinin cənab Həsənlinin efir vaxtından sui-istifadə etdiyini və başqa namizədlərin vaxtna müdaxilə etdiyindən şikayət edib. Dördüncü şikayəti isə Cəmil Həsənlinin özü edib. O iddia edib ki, Müasir Müsavat partiyasından prezidentliyə namizəd olan Hafiz Hacıyev və hazırki Prezidentin səlahiyyətli nümayəndəsi Əli Əhmədov onun şərəf və ləyaqətini alçaldıb və o, ona ayrılmış efir vaxtından tam istifadə edə bilməyib.

23 Seçki Məcəlləsinin 112-1.7.9-cu müddəaları şikayət etmə və sübut gətirmə hüququnu təmin etsə də, onlar MSK qarşısında haqqında şikayət edilənə məzmun üzrə xəbərdarlıq göndərmək və ya işlə bağlı təhkim olunan ekspertə öz fikirlərini bildirmək üçün imkanı yaratmaq tələbini qoymur.

2011-ci ildə aparılmış bir sıra məhkəmə islahatlarının nəticəsi olaraq İnzibati Prosessual Məcəllə qəbul olunmuş və Apellyasiya məhkəmələrində (Bakı) İnzibati-İqdisadi Kollegiyalar yaradılmışdır ki, onlar və Ali Məhkəmə seçki ilə bağlı şikayətlərə baxır. Bu islahat seçki işlərininin məhkəmə aidiyyatını dəyişməklə ümumi məhkəmələrdə və apellyasiya məhkəməsinin mülki işlər üzrə kollegiyasında seçki işlərinə baxılması zamanı rast gəlinən çətinlikləri aradan qaldırmışdır. MSK seçki gününü təyin etdiyi tarixdən etibarən bu günə qədər Bakı Apellyasiya Məhkəməsinə doqquz şikayət daxil olub[24]. Səkkiz iş üzrə verilən qərarlardan Ali Məhkəməyə şikayət göndərilib. Şikayətlərin hamısı qanunda müəyyən edilmiş müddət ərzində baxılıb.

MSK-nın namizədliyin qeydə alınmasından imtina edilməsi ilə bağlı qərarından verilən şikayətlərdə əsas iki məsələ xüsusilə vurğulanır: namizədlər və ya onların səlahiyyətli nümayəndələri qanunun tələb etdiyi qaydada imzaların yoxlanılması günü və vaxtı barədə MSK tərəfindən məlumatlandırılmamamış və MSK ekspertlərinin imtina qərarlarının imzaların saxta olması "ehtimalına" əsasən verilməsinin yetərli əsas olmaması.

Seçki Məcəlləsinin 59.3 maddəsinə əsasən namizədlər və ya onların səlahiyyətli nümayəndələri imzaların yoxlanılması prosessində iştirak edə bilər və seçki komissiyası "sənədlərin yoxlanılması ilə bağlı qabaqcadan məlumat verməlidir". MSK isə iddia edir ki, qeydiyyat sənədlərinin təqdim edildiyi an səlahiyyətli nümayəndəyə imzaların yeddi gün ərzində yoxlanacağı və onların bu prosesdə iştirak hüququna malik olmaları haqqında məlumat verilir. Şikayətçilərin fikirlərini dinləyərkən Bakı Apellyasiya Məhkəməsi şikayətçinin imzaların yoxlama prosesində iştirak etmək marağı haqqında MSK-ya məlumat verib-verməməklərini soruşmuşdur, halbuki qanunla namizədlərdən və ya onların səlahiyyətli nümayyəndələrindən MSK-ya belə bir istəklərinin olması barədə məlumat verməsi tələb olunmur. Məhkəmə hesab etmişdir ki, namizədə məlumatın verilməməsi MSK-nın qərarının ləğvi və ya imzaların yenidən yoxlanılmasının tələbi üçün əsas ola bilməz.

Şikayətçilər həm də imzaların saxta imzaya oxşaması, digər sözlə "bir nəfərin bir neçə secici əvəzinə imzalaması" kimi ehtimalla imzaların etibarsız hesab olunmasından Məhkəməyə müraciət etmişdirlər. Öz şikayətlərində onlar qeyd edirlər ki, MSK-nın ekspert qrupunun fərziyyə və ehtimalı qeydiyyatdan imtina üçün yetərli əsas kimi çıxış edə bilməz və eyni arqument Avropa İnsan Hüquqları Məhkəməsinin icraatında olan bir sıra işlərdə irəli sürülmüşdür[25]. Bakı Apellyasiya Məhkəməsi MSK-nın işçi qrupunun ehtimalına əsaslanaraq qərar verməsinin nə dərəcədə qanuna uyğun olub-olmadığını araşdırmamış, əksinə namizədlərin qeydə alınmaq üçün kifayyət qədər imza toplamamasını səbəb gətirərək MSK-nın qərarını qüvvədə saxlamışdır[26].

22 günlük seçkiqabağı təşviqat müddətinin bitməsinə 11 gün qalmasına baxmayaraq, namizədlərin qeydə alınması ilə bağlı şikayətlər Ali Məhkəmədə baxılmaqdadır. Namizədliyi irəli sürülmüş şəxslər qeyd ediblər ki, onların imza toplamaq üçün kifayət qədər vaxtı olmamış və imzaların müfəssəl yoxlanılması üçün ayrılan müddət yetərli deyildir. İmzaların yoxlanılması müddətinin başa çatması seçkiqabağı təşviqatın başlamanması tarixi ilə eyni vaxta təsadüf edir.

---

24 Hüquq və İnkişaf Ictimai Birliyi ("exit-poll" üçün akreditasiyalar), 12 avqust; cənab Yaşar Məmmədov (namizədin qeydiyyatı), 16 avqust; cənab İlqar Məmmədov (namizədliyin qeydə alınmasında ləngimə), 28 avqust; cənab Rüstəm İbrahimbəyov (namizdəliyi qeydə alınmayıb), 17 sentyabr; cənab İlqar Məmmədov (namizədlik qeydə alınıb), 20 sentyabr, və cənab Cəmil Həsənli (dəyirmi masadan sonra MSK-nın dörd şikayətlə bağlı qərarı), 24 sentyabr.

25 *Bax. Ənnağı Haclbəyli Azərbaycana qarşı* və *Behbudov Azərbaycana qarşı*, hər iki işdə məhkəmə partiyalarla əlaqə saxlamış və Azərbaycan hökumətini imza yoxlama prosedurunu açıqlamasını istəmişdir.

26 Dörd iş üzrə Bakı Apellyasiya Məhkəməsi xəttşunas ekspertini cəlb edərək imzaların məhkəmə üçün yoxlanılmasını tapşırıb.

Beləliklə, qeydə alınmasından imtina edilən namizəd məhkəmədə qalib gəlsə belə, seçkiqabağı təşviqat müddətindən tam istifadə edə bilmir.

## VIII. MISSIYANIN FƏALİYYƏTİ

Hesabat dövründə ATƏT/DTİHB SMM öz müntəzəm işini davam etdirmiş, dövlət nümayəndələri, qeydə alınmış namizədlər və onların nümayəndələri, partiya, vətəndaş cəmiyyəti, media və diplomatik missiyaların nümayəndələri ilə görüşmüşdür. SMM-in rəhbəri Şəki, Gəncə və Naxçıvan Muxtar Respublikasına səfər etmişdir. SMM-nin ölkə üzrə yerləşdirilmiş uzun müddətli müşahidəçiləri seçkiyə hazırlıq və seçkiqabağı təşviqatın müşahidəsini davam etdirir və qısa-müddətli müşahidəçilərin yerləşdirilməsi ilə bağlı hazırlıq işlərini görür.

Sentyabrın 13-də Azərbaycanda akreditə olunmuş diplomatik korpusun üzvləri üçün brifinq keçirilmişdir. ATƏT/DTİHB SMM-in rəhbəri senytabrın 24-ü prezident İlham Əliyevlə görüşmüşdür. Bununla bərabər, SMM ATƏT-in qısa müddətli müşahidə missiyasına rəhbərlik edəcək xüsusi əlaqələndiricisi Mişel Vuazin və sentyabrın 10-da Azərbaycanda seçki müşahidə missiyasını başlayan Müstəqil Dövlətlər Birliyinin İcra Katibinin nümayəndələri ilə görüş keçirib.

*Bu hesabatın ingilis dilində olan sürəti yeganə rəsmi sənəd hesab olunur.*
*Azərbaycan dilinə qeyri-rəsmi tərcümə olunub*